F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Oxuyaq, öyrənək, dilimizi zənginləşdirək

Kitabxanalarda Azərbaycan dili biliklərinin inkişaf etdirmək məqsədilə uşaqların dil mədəniyyəti və nitq bacarıqlarının inkişaf etdirilməsi təbliği işinin həyata keçirilməsində görülən tədbirlərlə bağlı hazırlanmış metodik vəsait.

**Bakı – 2026**

*Tərtibçi:* *Nərgiz Məcidova*

*Redaktor:* *Ruhiyyə Məmmədli*

**“Oxuyaq, öyrənək, dilimizi zənginləşdirək”** - Dil millətin simasını səciyyələndirən mühüm amillərdən biri, onun milli sərvətidir. Millətin dilinin dövlət dili statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu münasibətlə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait / F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. N. Məcidova; red. R.Məmmədli - Bakı: 2025. – 30 s.

**Ünvan:AZ-1022 Bakı şəh., S.Vurğun küç.88;**

**E-mail: info@clb.az.**
**İnternet ünvanı: www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası**

## Giriş

“Öz dilinizi heç vaxt unutmayın və öz ana dilinizi heç bir başqa dilə dəyişməyin. Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şeyi ola bilməz. Azərbaycan dilini daha da zənginləşdirmək, daha da inkişaf etdirmək sizin ən müqəddəs borcunuzdur”.

**Heydər Əliyev,**
**Ümummilli Lider**

Dil millətin simasını səciyyələndirən mühüm amillərdən biri, onun milli sərvətidir. Millətin dilinin dövlət dili statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu yüksəliş millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda, dilin zənginliyinin sübutudur. Dil istənilən xalq üçün maddi və qeyri-maddi irsin qorunması, inkişafı və gələcək nəsillərə ötürülməsi istiqamətində ən güclü vasitələrdən biridir.

Hər bir millətin milli-mənəvi irsini, maddi-mədəni sərvətlərini qoruyan, inkişaf etdirən və dünyada tanıdan ən mühüm və ən güclü vasitələrdən biri onun ana dilidir. Ana dili hər bir fərdin mənəvi zənginləşməsində, dünyagörüşünün genişlənməsində, yüksək səviyyədə təhsil almasında və cəmiyyət üçün layiqli vətəndaş kimi yetişməsində mühüm rol oynayır. Məhz ana dili hər bir millətin başqa xalqların mədəni irsi ilə tanış olmağa və zənginləşməsinə geniş imkan yaradır. Hər bir dil özündə bir tarix yaşadır. Uşaq belə ilk sözlərini ana dilində öyrənir, ətraf aləmi bu dil vasitəsilə tanıyır və düşüncə tərzini formalaşdırır. Ana dili uşağa öz xalqının tarixini, adət-ənənələrini, mədəniyyətini və mənəvi dəyərlərini öyrədir. Uşağın şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayan ana dili onda vətənpərvərlik hisslərinin yaranmasına kömək edir. Uşaq ilk olaraq ailədə ana dili vasitəsilə ətraf aləmi tanıyır, milli-mənəvi dəyərləri mənimsəyir və davranış qaydalarını öyrənir. insanın düşüncə tərzinin, dünyagörüşünün və mənəvi aləminin formalaşmasına təsir göstərən Dil uşağın şəxsiyyətinin formalaşmasında, mənəvi inkişafında və milli-mədəni dəyərləri mənimsəməsində, insanın milli kimliyini qorumasına kömək edir, öz xalqına mənsubiyyət hissini gücləndirir. Xüsusilə məktəb və kitabxana mühitində ana dilinin təbliği uşaqlarda dilə sevgi, milli dəyərlərə bağlılıq və mənəvi zənginlik yaradır. Dil təkcə ünsiyyət vasitəsi deyil, həm də güclü tərbiyə amilidir. Ana dilinin uşaqların inkişafındakı rolu əsasən uşağın söz ehtiyyatını artırması onların nitqinin inkişafına müsbət təsir edir. Uşağın söz ehtiyatı ilə yanaşı düzgün danışıq və ifadə bacarıqlarını formalaşdırır. Təfəkkürü inkişaf etmiş uşaqlar düşünməyi, müqayisə aparmağı, nəticə çıxarmağı məhz dil vasitəsilə öyrənir. Uşaqların mənəvi tərbiyəsində böyük rol oynayan nağıllar, atalar sözləri, bayatılar və bədii əsərləri oxumaqla uşaqlarda milli-mənəvi dəyərlərə hörmət hissi yaranır, Ünsiyyət vasitəsi ilə uşağın öz xalqına, tarixinə və mədəniyyətinə bağlılığı güclənir. Ümumiyyətlə uşaqlıarın ünsiyyət bacarığının düzgün qurulması üçün ailədə, məktəbdə və

cəmiyyətdə sağlam münasibətlər yaratması üçün ana dilinin mükəmməl olması əsasdır. Dil uşaqların mənəvi, əxlaqi və vətənpərvərlik ruhunda yetişməsində mühüm rol oynayır. Bundan başqa ana dilinin əsasını nitq mədəniyyəti təşkil edir ki, nitq mədəniyyəti insanın düzgün, aydın, səlis və nəzakətli danışıq bacarığı deməkdir. Uşaqlarda nitq mədəniyyətinin formalaşdırılması isə onların şəxsiyyət kimi inkişafında, ünsiyyət bacarıqlarının zənginləşməsində və milli-mənəvi dəyərlərə bağlı böyüməsində mühüm rol oynayan amillərdəndir. Bu baxımdan ailə, məktəb və kitabxanalar uşaqların nitq mədəniyyətinin formalaşması üçün təbliğat istiqamətində birgə fəaliyyət göstərməlidirlər. Nitq mədəniyyətinin düzgün formalaşdırılmasının əhəmiyyəti bundan ibarətdir ki, söz ehtiyatını zənginləşdirməklə uşaqların öz ana dilinə sevgi və hörmət hissi artır, fikri düzgün və ardıcıl ifadə etməyi mükəmməlləşir. Buda onlarda ünsiyyət mədəniyyətini formalaşdırır, oxu və yazı bacarıqlarının inkişafına kömək edir.

**Təbliğat işində həyata keçirilən tədbirlər:**
Ana dilini sevmək, qorumaq və zənginləşdirmək hər bir vətəndaşın mənəvi borcudur. Nitq mədəniyyətinin inkişafı isə savadlı, mədəni və dünyagörüşlü cəmiyyətin formalaşmasının əsas şərtlərindən biridir. Ana dilimizin saflığını qorumaq, onu düzgün istifadə etmək və gələcək nəsillərə ötürmək milli-mədəni irsimizə göstərilən ən böyük hörmət nümunəsidir.
Kitabxanada bədii əsərlər, şeirlər və hekayələrin mütaliəsi gələcək nəsildə xeyirxahlıq, dürüstlük, mərhəmət və humanizm kimi keyfiyyətlərin inkişafına kömək edən, onların ünsiyyət mədəniyyətinin inkişafına gətirib çıxaran ən gözəl vasitələrdəndir. Gələcəkdə hərtərəfli inkişaf etmiş bir insan olmaq üçün hər birimizin ana dilimizə gözəl şəkildə yiyələnməyimiz lazımdır. Çünki ana dilini mükəmməl bilmək insanlara fikirlərini aydın ifadə etməyi, başqalarına hörmətlə yanaşmağı və düzgün ünsiyyət qurmağı öyrədir. Dilini sevmək hər bir gənc üçün önəmlidir. Ana dilinin sevdirmək inkişaf etdirilmək isə cəmiyyətin bütün sahəsində çalışan hər bir vətəndaşın mühüm vəzifəsidir. Uşaqlarla işləyən mədəniyyət müəssisəsi olaraq F. Köçərli adına Respublika Uşaq kitabxanasında uşaqlarla ana dili biliklərinin inkişaf etdirilməsi üçün hər zaman müxtəlif layihələr həyata keçirilir. Bütün yaş qrupu oxucularına nağıllar, atalar sözləri, tapmacalar və xalq ədəbiyyatı nümunələri vasitəsilə xeyirxahlıq, dürüstlük, əməksevərlik, böyüyə hörmət kimi keyfiyyətlər aşılanır. Buda onların nitq və ünsiyyət bacarıqlarının inkişafına daha çox kömək edir. Çünki, ana dilini yaxşı bilən uşaq fikirlərini daha aydın ifadə edir, insanlarla düzgün ünsiyyət qurur və özünü sərbəst şəkildə təqdim edə bilir. Buda gələcəkdə onların təfəkkürün inkişafına kömək etməklə yanaşı onlarda ünsiyyət bacarığı yaradır. Müəyyən yaş qruplu oxuculara xidmət edən Firidun bəy Köçərili adına Respublika Uşaq kitabxanası hazırladığı tədbirlərilə çalışır ki, oxucuları düşüncənin əsas vasitəsi olan ana dililərini mütaliə vasitəsilə zənginləşdirsinlər. Daha çox öz söz ehtiyatlarını, məntiqi və yaradıcı təfəkkürlərini

inkişaf etdirsinlər. Özünü düzgün ifadə etmək bacarığına malik uşaq olaraq ailə və cəmiyyətlə bağlılığını möhkəmləndirsinlər. Hazırladığımız bu vəsaitdədə həyatımızın ən qiymətli sərvətlərindən biri olan ana dilimizdən və onun uşaqların inkişafındakı mühüm rolundan, dil biliklərinin inkişaf etdirmək üçün kitabxanalarda keçirilməsi nəzərdə tutulan layihələrdən, gənc nəslə bu işdə edə biləcəyimiz töhfələrdən danışacayıq. Axı ana dili yalnız ünsiyyət vasitəsi deyil, həm də milli kimliyimizin, mənəvi dəyərlərimizin daşıyıcısıdır. Uşağın dünyanı dərk etməsinə, düşünməsinə və özünü ifadə etməsinə imkan yaradan ən güclü vasitədir. Buna görə də hər birimiz ana dilimizin saflığını qorumağa və onu gələcək nəsillərə ötürməyə çalışmalıyıq. Gəlin dilimizi sevək, qoruyaq və gələcək nəsillərə olduğu kimi çatdıraq. Müəllimlərə, məktəb, lisey kitabxanaçılarının istifadəsi üçün gənc nəslə ana dilinin təbliği işində köməklik məqsədilə hazırladığımız bu vəsait giriş hissəsi, oxucuların mütaliəyə cəlb edilməsi üçün ana dilinin təbliği işində keçirilə biləcək müxtəlif tədbir formalarından bəhs edir. Sonda isə istifadəçilərə bu mövzuda ədəbiyyat siyahısı təqdim edilmişdir.

Hər bir millətin kimliyi, ədəbiyyatı, mədəniyyəti onun dilindən başladığı üçün, xalqların öz istiqlaliyyəti uğrunda apardığı mübarizələrdə dil məsələsi həmişə mərkəz mövqedə dayanmışdır. Bəzən bütöv bir istiqlaliyyət mübarizəsi yalnız ana dili üzərində cəmləşir. Dil nəsillərdən qalan yadigarımız olub bu günümüzə gələn - Nəsiminin, Füzulinin, Xətainin, Vaqifin mirasıdır... Dilin dövlət dili statusuna malik olaraq yüksəkdə durması, milli dövlətçilik tarixinin parlaq səhifəsi, xalqın öz taleyinə sahib çıxmasının, dövlət qurmaq və onu qorumaq əzminin, eyni zamanda dilin zənginliyinin sübutudur. Xalqımız xoşbəxtdir ki, doğma Azərbaycan dili keçmişimizi, bu günümüzü və sabahımızı milli dili ilə özündə yaşadır.

Ana dilinin qorunması və təbliği işində bir növ mənəvi körpü rolunu oynayan kitabxanalar bu missiyanı müxtəlif ədəbi-bədii layihələr, maarifləndirici tədbirlər və interaktiv oxucu proqramları vasitəsilə həyata keçirirlər. Belə tədbirlər əsasən aşağıdakı istiqamətlərdə aparılır: Mövzu üzrə sərgilərin təşkili: *“Ana dilimiz – milli sərvətimiz”, “Dilim – varlığım, mənliyimdir”* kimi başlıqlar altında klassik və müasir ədəbiyyat nümunələrindən, eləcə də lüğət və ensiklopediyalardan ibarət stendlərin, sərgilərin hazırlanması. Yazıçı və şairlər, dilçi alimlər oxucularla, xüsusilə gənc nəsillə görüşlər keçirilərək ana dilinin saflığı və zənginliyi haqqında mühazirələrin oxunması və s.

Ana dilinə sevgi hissini gücləndirmək, düzgün nitq və mütaliə mədəniyyətini təbliğ etmək üçün kitabxanada keçirilən *Beynəlxalq Ana Dili Günü Layihələri xüsusi rol oynayır*. Belə ki, hər il fevralın 21-də kitabxanalarda keçirilən xüsusi tədbirlər, şeir və kitab müzakirələri daha məqsədəuyğundur. Ana dilində yazılmış əsərlərin daha çox oxunmasını təşviq etmək məqsədilə kitabxanalarda “Ən yaxşı oxucu”, nağıl oxuma və ya bədii qiraət müsabiqələri keçirə bilərik. Dialektlərin və Folkloru təbliğ edərək bölgələrə xas olan şifahi xalq ədəbiyyatı nümunələrini, eləcə də yerli dialekt və şivələri əks etdirən materialları toplayıb tədbirlər hazırlanmasında istifadə edə

bilərik.Bu tədbirlər sırasında dilçi alimlər, müəllimlərin şair və yazıçıların iştirakı ilə hazırlanmış konfranslar, daha maraqlı olar.Bu tədbirləri *"Ana dilini sevən xalq gələcəyini qoruyur.","Gözəl nitq yüksək mədəniyyətin göstəricisidir.","Kitab oxu, sözünü zənginləşdir.", "Dilimizi qoruyaq, mədəniyyətimizi yaşadaq.","Hər düzgün söz milli dəyərimizə verilən qiymətdir." başlıqlı konfrans, dəyirmi masa təşkil edə bilərik.*

Ana dilinin mükəmməl mənimsənilməsində kitabxanada ucadan oxuların, nağıl saatlarının böyük əhəmiyyəti vardır. Kitabxanaçı oxuculara hər hansı hekayəni nağıl və s. oxuyub həmin əsəri davam etdirmələrini istəyirlər. Kitabxanada müxtəlif yarışmaların, viktorinaların, təşkil olunması, Ana Dili Günü ilə bağlı konfransların, şeir müsabiqələrinin, oxu saatlarının kitab icmallarının, mövzu üzrə söhbətlərin, yazı müsabiqələrinin və b. tədbirlərin keçirilməsində əsas məqsəd dilə quru, ancaq qrammatik cəhətdən yanaşmaqdan çox, öyrədici və maraq yaradıcı məqamlara diqqət etməkdir. Çalışırıq ki, belə tədbirlərlə, şagirdlərimiz ana dillərinə sevgi aşılansın . Hər bir Azərbaycan vətəndaşı da milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycan dilini mükəmməl bilməlidir.

***Oxucu konfransı:***

*"Ana dilini sevən xalq gələcəyini qoruyur."* adlı oxucu konfransını təqdim edirik.

**Kitabxanaçı:** "Hörmətli iştirakçılar! Bugünkü tədbirimiz ana dilimizin zənginliyinə və nitq mədəniyyətinin təbliğinə həsr olunub. Gəlin görək ana dili nədir? Ana dili xalqın tarixini, mədəniyyətini və milli kimliyini yaşadan ən böyük mənəvi sərvətdir. Hər birimiz ana dilimizi düzgün öyrənməli, onu qorumalı və gələcək nəsillərə saf şəkildə çatdırmalıyıq. Gəlin sözün dəyərini bilək, nitqimizi zənginləşdirək və dil mədəniyyətimizin inkişafına gözəl töhfələr verək."

**Nitq mədəniyyətinin inkişafına dair tədbirlər:**

Nitq mədəniyyətinin əsasını ədəbi dil normalarına düzgün yiyələnmək təşkil edir ki, nitq mədəniyyəti sizin öz fikirlərinizi düzgün, aydın, məntiqli və təsirli şəkildə ifadə etmək bacarığınızdır. Kitabxanalar cəmiyyətin maariflənməsində mühüm rol oynadığı üçün nitq mədəniyyətinin düzgünlüyünün təbliği də onların əsas fəaliyyət istiqamətlərindən biridir. Bizim nitqimiz əsasən mütaliə etməklə yaxşılaşır. Xalqın mədəni səviyyəsinin yüksək sürətlə inkişaf etdiyi hazırkı zamanda dildən məqsədəuyğun istifadə etmə qaydalarına bələd olmaq, yəni aydın, ahəngdar, səlis, yığcam, ifadəli, həm də məzmunlu nitqə malik olmaq - danışıb yaza bilmək - nitq mədəniyyətinin aktuallığını sübut edən faktlardandır.

Kitabxanada gələcək nəslin nitq mədəniyyətinin yaxşılaşdırıması üçün tədbirlərin keçirilməsində məqsəd Azərbaycan ədəbi dilinin normalarını təbliğ etmək, oxucularda düzgün danışıq və yazı vərdişləri formalaşdırmaq, gənclərin nitq qabiliyyətini inkişaf etdirmək, onlarda ana dilinə hörmət və məhəbbət hissini gücləndirməkdir. Bu mövzunun oxuculara aşılanması üçün kitabxanalarda və mədəniyyət ocaqlarında oxucuları mütaliəyə cəlb etmək üçün *"Müzakirə və dəyirmi*

*masalar, kitab və ya mövzu üzrə sərgilər, şeir və bədii qiraət müsabiqələri, inşa müsabiqəsi kitabın biblioqrafik icmalı, hər hansı müəllifin yubileyi ərəfəsində ktabın müzakirəsini,* və s. təşkil edə bilərik. Hazırlanacaq tədbir başlıqlarını isə belə seçə bilərik:

*"Nitq mədəniyyəti və müasir gənclik"*
*"Ana dilimizin saflığını qoruyaq"*
*"Düzgün danışaq, düzgün yazaq"*

**Kitab sərgiləri:**

Kitabxanada oxucular arasında nitq mədəniyyətini yaxşı olmasını təbliğ etmək, Azərbaycan ədəbi dilinin normalarını tanıtmaq, düzgün danışıq və yazı vərdişlərini oxucular arasında inkişaf etdirmək, ana dilinə hörmət hissini gücləndirmək məqsədilə Azərbaycan dili biliklərinin təbliğ etmək üçün

***Sərgi başlıqları***

*"Ana dilimiz – milli varlığımız"*
*"Dilimiz qürur mənbəyimizdir"*
*"Azərbaycan dilinin zənginlikləri"*
*"Dil və milli kimlik"*
*"Oxu mədəniyyəti və zəngin nitq",*
*"Mütaliə – gözəl nitqin açarıdır",*
*"Kitabdan gələn söz işığı",*
*"Ana dilimizi kitablarla yaşadaq",*
*"Oxuduqca öyrənək, öyrəndikcə gözəl danışaq",*
*"Sözün gücü, kitabın nuru"*
*"Mütaliə – nitq mədəniyyətinin təməlidir"*
*"Ana dilinə sevgi mütaliədən başlayır"*
*"Oxuyan nəsil, zəngin dil"*
*"Dilimizi kitablarla sevək və qoruyaq"*
*"Kitab oxumaq – nitqimizi zənginləşdirən ən gözəl yoldur"başlıqlı maraqlı kitablardan ibarət sərgi hazırlaya bilərik.*
*İlk əvvəl sərginin keçirilməsi haqqında elan hazırlanır. Elanı*
*"Ana dilini sevən kitabdan ayrılmaz.",*
*"Mütaliə zəngin düşüncənin və düzgün nitqin açarıdır."*
*"Söz xəzinəmizi kitablarla zənginləşdirək!"şüarları ilə təşkil edilən sərgilər hazırladığımız tədbirləri daha maraqlı edər. Bu başlıqlar kitabxanalarda, məktəblərdə və mədəniyyət müəssisələrində təşkil olunan ana dili və mütaliə mövzulu sərgilər üçün uyğundur. "Gözəl nitq – yüksək mədəniyyət göstəricisidir", "Nitq mədəniyyəti"*, bölmələri ilə hazırlanmış sərgini Azərbaycan dili, nitq mədəniyyəti, ünsiyyət bacarıqlarına aid kitabların nümaişi ilə hazıraya bilərik.
*"Kitab oxumaq – nitqimizi zənginləşdirən ən gözəl yoldur"* adlı sərginin plnını istifadəçilərə təqdim edirik.

























https://drive.google.com/file/d/1BVVgESUWTlH
55CTU88EnM3BeXhzlrFm/view
https://drive.google.com/file/d/15xSIVH6hTF-D4Cu92BP8LzOXHjf2Smjt/view
https://clb.az/elektron/Sevimli_kitablarimiz/kitab/Rafiq%20Yusifoglu-
Ana_dilim.pdf

**Ana dili haqqında deyilmiş kəlamlar:**

“Ana dili xalqın milli kimliyinin, tarixinin və mənəvi dəyərlərinin ən etibarlı qoruyucusudur.”
“Nitq mədəniyyəti insanın tərbiyəsinin, savadının və dünyagörüşünün aynasıdır.”
“Dilini sevən xalq öz keçmişini qoruyur, gələcəyini isə möhkəm təməllər üzərində qurur.”
“ Ana dilində düzgün, aydın və səlis danışmaq hər bir vətəndaşın mənəvi borcudur.”
“Zəngin söz ehtiyatı mütaliədən, gözəl nitq isə davamlı dil təcrübəsindən yaranır.”
“Nitq mədəniyyəti yalnız düzgün danışmaq deyil, həm də qarşı tərəfə hörmətlə yanaşmaq bacarığıdır.”
“Kitab oxuyan insanın dili zənginləşir, nitqi gözəlləşir, düşüncəsi dərinləşir.”
“Ana dilinin saflığını qorumaq milli-mənəvi irsimizi qorumaq deməkdir.”
“Söz insanın ən böyük sərvətidir. Dəyərli söz isə mədəni nitqin məhsuludur.”
“Dil millətin ürəyidir, nitq isə həmin ürəyin döyüntüsüdür."

**Məşhur şəxslərin fikirləri:**
Heydər Əliyev: “Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.”
İlham Əliyev: “Azərbaycan dili bizim milli sərvətimizdir və onu qorumaq hər birimizin borcudur.”
Mirzə Cəlil Məmmədquluzadə: “Dil millətin varlığıdır.”




**Şeir və ya bədii qiraət müsabiqəsi:**
Kitabxanalarda sərgilərin təşkilindən əlavə şeir və bədii qiraət müsabiqələridə uşaqların ədəbi zövqünün və nitq mədəniyyətinin inkişafı üçün geniş istifadə olunan maraqlı tədbir formalarındandır. *Təşkil edilmiş “Düzgün danışıq, yüksək mədəniyyətdir”, “Sözün sehri”* adlı şeir və bədii qiraət müsabiqəsində iştirakçılar klassik və müasir Azərbaycan şairlərinin əsərlərini ifadəli şəkildə səsləndirirlər. Müsabiqənin məqsədi oxucuların bədii qiraət bacarıqlarını inkişaf etdirmək, Azərbaycan ədəbiyyatına marağı artırmaq onlarda nitq mədəniyyətini inkişaf etdirmək və gənclərdə bədii sözə sevgi aşılamaqdır. Müsabiqəni giriş sözü ilə açan aparıcı iştirakçıları salamladıqdan sonra müsabiqəni açıq elan edir.
**Aparıcı:** “Hörmətli müəllimlər, əziz qonaqlar və kitabsevər uşaqlar! Sizi kitabxanamızın təşkil etdiyi *“Sözün sehri”* adlı bədii qiraət müsabiqəsində

salamlayırıq. Ana dilimizin gözəlliyini, Azərbaycan poeziyasının zənginliyini və söz sənətinin qüdrətini yaşatmaq hər birimizin mənəvi borcudur. Şeir insan duyğularının, düşüncələrinin və arzularının ən gözəl ifadəsidir. Bədii qiraət isə həmin hissləri dinləyicilərə çatdıran bir sənətdir. Bu gün burada iştirakçılarımız Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin, sevdikləri şairlərin əsərlərini böyük həvəslə təqdim edəcək, sözün gücünü və gözəlliyini öz ifaları ilə nümayiş etdirəcəklər. Bütün iştirakçılara uğurlar arzulayırıq. Müsabiqədə ifadəlilik, düzgün tələffüz və səhnə mədəniyyəti nəzərə alınır.

Qiymətləndirmə meyarları əsasən :

Düzgün və səlis nitq – 10 bal

İfadəlilik və emosional təqdimat – 10 bal

Səhnə mədəniyyəti – 10 bal

Şeirin məzmununun çatdırılması – 10 bal

Ümumi təəssürat – 10 bal ilə qiymətləndirilə bilərik.

***Müsabiqə üçün tövsiyə olunan şeirlər***

***Süleyman Rüstəm – “Ana dili”, “Vətən”***

***Bəxtiyar Vahabzadə – “Ana dili”***

***Məmməd Araz – “Azərbaycan – dünyam mənim”***

***Xəlil Rza Ulutürk – vətənpərvərlik mövzulu şeirlər***

***Səməd Vurğun – “Azərbaycan”***

**Ana dili**

Ananın özü kimi
Ana dili müqəddəs
Damarımızda qandı
Ciyərimizdə nəfəs.

Şirin layla eşidib
Körpə dinclik tapıbdır.
O dil ana südüylə
Ruhumuza hopubdur.

Ana dilim, doğma dilim,
Varlığımsan mənim, dilim.
Laylalarda eşitmişəm,
Sənin şirin avazını.

.....

Hər sözündə bir hikmət var,
Hər kəlmən bir inci, gövhər.
Səni sevib yaşadarıq,
Qoruyaq biz nəsillərlə.

Ana dilim, ürəyimsən,
Mənliyimsən, gələcəyimsən.
Səninlədir bütün varım,
Azərbaycan dilimsən!

.........

***Ana dili***

Dil açanda ilk dəfə “ana” söyləyirik biz,
“Ana dili” adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə.
Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil əcdadımızın bizə miras verdiyi
Qiymətli xəzinədir…onu gözlərimiz tək
Qoruyub, nəsillərə biz də hədiyyə verək.
Bizim uca dağların sonsuz əzəmətindən,
Yatağına sığmayan çayların hiddətindən,
Bu torpaqdan, bu yerdən,
Elin bağrından qopan yanıqlı nəğmələrdən
Güllərin rənglərindən, çiçəklərin iyindən,
Mil düzünün, Muğanın sonsuz genişliyindən,
Ağsaçlı babaların əqlindən, kamalından,
Düşmən üstünə cuman o Qıratın nalından
Qopan səsdən yarandın.
Sən xalqımın aldığı ilk nəfəsdən yarandın.

**Bəxtiyar Vahabzadə**

***4.Viktorinalar***

*Kitabxanada “Sözün sehri” adlı şeir qiraət müsabiqəsindən əlavə “Bilik xəzinəsinə səyahət”* adlı kiçikyaşlı oxucular üçün viktorinanın təşkilində məqsəd oxucuların mütaliəyə marağını artırmaq, onların ədəbiyyat, tarix, mədəniyyət və ana dili sahəsində biliklərini yoxlamaq və inkişaf etdirməkdir. Kitabxanalarda keçirilən bütün maarifləndirici tədbirlərlə yanaşı viktorinalarda oxucuların fəallığını artıran səmərəli vasitələrdən biridir. Viktorinada dil qaydaları, atalar sözləri, frazeoloji birləşmələr və Azərbaycan dili, nitq mədəniyyəti ilə bağlı oxuculara müxtəlif suallar təqdim olunur.

**Viktorina sualları**

Müzakirə sualları

• Ana dili nə üçün xalqın ən böyük sərvəti hesab olunur?
• Gündəlik həyatda dilimizin saflığını necə qoruya bilərik?
• Xarici sözlərin həddindən artıq işlədilməsi dilimizə necə təsir edir?
• Sosial şəbəkələrdə Azərbaycan dilinin düzgün istifadəsi üçün nə etmək lazımdır?
• Gənclərin ana dilinə marağını artırmaq üçün hansı tədbirlər görülə bilər?

Azərbaycan Respublikasının dövlət dili hansıdır?
Ana dili günü nə vaxt qeyd olunur?
Dil mədəniyyəti nədir?
Azərbaycan dilinin saflığını qorumaq üçün nə etməliyik?
Ana dili haqqında şeirləri ilə tanınan şairlərdən kimləri tanıyırsınız?
Bu suallar ətrafında iştirakçıların fikirləri isə belə ola bilər:
Azərbaycan dilində düzgün danışmaq və yazmaq;
Kitab oxumaq vərdişini artırmaq;
Dil qaydalarına əməl etmək;
Xarici sözlərdən mümkün qədər az istifadə etmək;
Uşaqlarda ana dilinə sevgi aşılamaq.

Aydındır ki, dil millətin yaranışı və inkişafı ilə meydana gəlib, inkişaf edir. Buna uyğun olaraqda, elmi rəylərə görə, Azərbaycan dilinin inkişafı III-VII əsrlərdə başlayıb və XI əsrdə Qafqazda və digər qonşu ölkələrdə geniş yayılıb, XII əsrdə isə ədəbi dil kimi tam formalaşan Azərbaycan dili Səfəvilər dövlətində saray və ordu dili kimi dövlətin ilk rəsmi dili hesab olunub. Leksik tərkibi ərəb və fars sözlərinin çoxluğu ilə seçilən əski dövrün Azərbaycan dili  zaman-zaman “türki”, “türk dili”, “Azərbaycan türkcəsi”, “tatar dili”, “Qafqaz tatarlarının dili” kimi adlandırılıb. 1929-1939-cu illərdə mövcud olan latın qrafikalı əlifbamız sonra kiril əlifbası ilə əvəz edilsədə 1991-ci ildən ölkəmiz yenidən latın qrafikalı əlifbaya keçib. Ana dilinin müasir anlamda dövlət dili kimi işlənməsini vacib edən ilk qəti rəsmi sənəd Azərbaycan Xalq Cumhuriyyətinin 1918-ci il iyunun 27-də Azərbaycan dilinin dövlət dili elan edilməsilə bağlı olub. O vaxt Azərbaycan Xalq Cumhuriyyəti 1918-ci il avqustun 28-də ibtidai və orta təhsil müəssisələrində təhsilin ana dilində aparılması haqqında qərar qəbul edib. Sovet hakimiyyəti dağıldıqdan sonra Müasir Azərbaycan dövlətinin memarı Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra 2001-ci ildə dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi naminə verdiyi fərman ana dilinə göstərilən qayğının nümunəsi olub. Şükürlər olsun ki, bu gün Vətənimizin əsas atributları olan üçrəngli Bayrağımız, səkkizguşəli Gerbimiz, qəlb oxşayan Himnimiz və özümüzə məxsus gözəl, rəvan dilimiz var.

**Dünya dillərinə çevrilən dillərə maraq**

Hazırda sürətlə inkişaf edən dünyada şagirdlər xarici dillərin öyrənilməsinədə çox meyl edirlər. Bu ənənə doğma dilin öyrənilməsinə marağı azaltmamalıdır. Təbii ki, qloballaşan dünyamızda istər-istəməz dünya dillərinə çevrilən dillər hər zaman diqqət mərkəzində olur. Təbii ki, öz gələcək təhsillərini xarici ölkələrdə davam etdirmək niyyətində olan şagirdlər bunu nəzərə alaraq onlara lazım olacaq xarici dillərə meyillənirlər. Eyni zamanda, təhsilini ölkəmizdə davam etdirəcək şagirdlər də xarici dil biliklərini artırmağı düşünür, gələcək karyeralarını daha da təkmilləşdirmək üçün bunun bir vasitə və yol olduğunu dərk edirlər. Buna görə də xarici dil öyrənmək hər bir gənc üçün maraqlı olur. Lakin xarici dilin öyrənilməsi üçün də insan gərək öz dilini unutmasın, onun incəliklərini bilsin. Söz bazası, dinləmə, anlama bacarığının olması da xarici dil öyrənmək üçün vacib nüanslardır. Mütəxəssislərin fikri budur ki, istənilən halda insanın ana dili sonrakı vaxtlarda öyrənilən hər hansı bir xarici dil üçün bünövrə rolunu oynayır, insanlar xarici dili öyrənərkən ana dilləri ilə müqayisəli formada öyrənirlər. Ana dilinin şagirdlərə sevdirilməsi, hər bir vətəndaşın borcu olub, Azərbaycan dili və ədəbiyyat müəllimləri ilə yanaşı kitabxana işçilərinində əsas vəzifələrindən biridir. Kitabxana əməkdaşlarıda uşaqların nitq bacarıqlarının inkişaf etdirilməsi, dil mədəniyyətinin gücləndirilməsi üçün müxtəlif tədbirlər həyata keçirirlər. Dilimizin daxili imkanlarının nəyə qadir olduğunu nümayiş etdirmək üçün müəllimlər dərslərdə bədii əsərlərin oxusu və təhlilini apararkən zəngin ədəbiyyat seçimində kitabxanaçılar da müəllimlərə kömək edirlər. Buda ədəbiyyatın təbliğində çox gözəl bir vasitədir.

**Yaxşı mütaliə qabiliyyətinin olması üçün dilin qrammatikası ilə yanaşı, dilini mükəmməl bilmə, oxuyub anlama**, analiz etmə, müəyyən bir məsələyə fikir bildirmə kimi xüsusiyyətlər olmalıdır. Yəni yalnız qrammatikanı bilmək yaxşı mütaliə qabiliyyətinin olması üçün kifayət etmir. Çünki dilin istifadə imkanları, ondan nə zaman və necə istifadə edə bilmək qabiliyyəti ilə yoxlanır ki, bu da insanların özünü ifadə etmə bacarığını, öz düşüncələrini başqalarına çatdırma qabiliyyətini, qarşıdakının fikirlərinin düzgün başa düşülüb-düşülməməsini təmin edən əsas faktorlardandır. Məhz bu kimi bacarıqların formalaşması üçün də əvvəla dilin leksik mənası yaxşı mənimsənməlidir, yəni şagirdin söz bazası inkişaf etməlidir. Bunun üçün isə şagirddən tələb olunan yaxşı mütaliə qabiliyyətinin olmasıdır. Sualları oxuyub başa düşmək birbaşa mütaliə ilə sıx əlaqədardır. Mütaliəsi çox olan, bədii və publisistik əsərləri oxuyub anlaması güclü olan şagird mütaliəsi çox olan şagirddir.

**Millətin milliliyini saxlayan onun** dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edən nümunələrdəndir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi

haqqında 9 aprel 2013-cü il tarixli 2837 nömrəli Sərəncamına əsasən, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinin, ölkədə dilçilik araşdırmalarının əsaslı surətdə yaxşılaşdırılmasının təmin edilməsi milli ədəbi dilin daha da zənginləşməsi ilə yanaşı, dilçiliyin əsaslı inkişafı baxımından da əhəmiyyətli olub bu istiqamətdə görülən işlər Ana dilimizin inkişafına ölkə başçısı tərəfindən göstərilən böyük qayğı və diqqətin təzahürüdür. Bu səbəbdən, Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, *"İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir*. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir".

**Reklam və dilimizin qorunması təbliği ilə görülən işlər**

Kitabxanada məktəbli şagirdlər və tələbələr cəlb olunmaqla görüşlər və müzakirələr maarifləndirmə və təşviqat istiqamətli tədbirlər əhəmiyyətli olur. Belə işlərdən mədəni dil normalarını özündə əks etdirən bukletlər, stendlər, mətnlərin istifadəsi kitabxanada maraqlı olar.

Dilimizin saflığının qorunması, eyni zamanda, özünəməxsus cəhətlərinə xələl yetirilmədən zənginləşdirilməsi hazırda aktual məsələlərdəndir. "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi sahəsində işlər artıq illər keçsədə bu gün də davam etdirilir. Kitabxanada Audiovizual reklamlarda, küçə reklamlarında, qəzetlərdə və saytlarda Azərbaycan dilinin normaya uyğun qaydada işlədilməsi, küçə adları, ədəbi dil normalarının pozulması kimi, rastlaşa biləcəyimiz ədəbi dil normalarını pozulması hallarında sözlərin düzgün tələffüz və yazılış qaydalarını daha dərindən oxucuların bilməsi üçün lüğtlərimizin təbliği ilə bağlı tədbirlər buna nümunə göstərilə bilər.

**Konstutisuya və dilimiz**

Uzaqgörən rəhbərin qətiyyəti və iradəsi sayəsində Azərbaycan dilinin dövlət dili olması barədə bənd Konstitusiyamızdada öz təsdiqini tapmışdır. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələn Ulu öndər qısa bir zamanda ölkədə iqtisadi, ictimai-siyasi, ideoloji-mənəvi həyatın normallaşmasına, stabilləşməsinə nail olduqdan sonra müstəqil dövlətimizin yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın 5 noyabr 1995-ci ildə keçirilən iclasında dövlət dilinin adı barədə öz qəti fikrini bildirdi: "Mən hər bir dilə hörmət edirəm və ehtiramımı bildirirəm. Hesab edirəm ki,Azərbaycan dili ilə fəxr edə bilərik. Çünki bu zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın da, dilimizin də adı tanınıb. Bu reallıqdır". 1995-ci ildə məhz ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və ümumxalq səsverməsi ilə qəbul edilən müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının 21-ci maddəsində dövlət dilinin Azərbaycan dili olması birmənalı şəkildə öz əksini tapdı. Ulu öndərin dövlət dilinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun və "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası

Qanununun tətbiq edilməsi barədə 2001-ci il 9 avqust tarixli Fərmanına əsasəndə, avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi təsis edildi. 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi, Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünü müdafiə ehtiyaclarının ödənilməsi istiqamətində 2003-cü il 2 yanvar tarixli fərmanları dilimizin və dilçiliyimizin inkişafında yeni bir mərhələnin başlanğıcını qoydu. Ana dilinə həssas münasibət xalqımızın bütövlüyünün, milli-mənəvi dəyərlərin qorunması, azərbaycanlı milli kimliyinin təsdiqi, ölkənin qüdrətinin artırılması baxımından olduqca mühüm əhəmiyyətə malikdir. Bu gün Azərbaycan dilinin dövlət statusunda azad və müstəqil şəkildə yaşaması, inkişaf etməsi, beynəlxalq aləmdə tanınması məhz ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Heydər Əliyev ana dilimizi yalnız qorumaqla kifayətlənmədi, onu yüksəltdi, hüquqi, siyasi və mənəvi status qazandırdı. Ulu öndərin "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm" müdrik kəlamı ana dilimizə olan məhəbbət və hər bir soydaşımız üçün örnəkdir. Bu gün də ana dilimizin qorunması davam etdirilir. Prezident İlham Əliyevin imzaladığı müvafiq fərman və sərəncamları üzrə atılan mühüm addımlar ana dilimizin saflığı və daha da zənginləşməsinə xidmət edir. Dövlət başçısı, həmçinin milli xüsusiyyətlərimizin saxlanmasında ana dili və ədəbiyyatımızın başlıca amillərdən olduğuna dəfələrlə diqqət çəkərək deyib: "Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir". Ölkə rəhbəri müxtəlif çıxışlarında, insanlarla söhbətlərində,bölgələrdə keçirdiyi görüşlərdə həmişə dövlət atributlarına, xüsusilə də Azərbaycan dilinə, milli adət-ənənələrə xüsusi ehtiramla yanaşıb. Prezident İlham Əliyevin ana dilinə verdiyi dəyər, onun qorunması və inkişafı naminə göstərdiyi ardıcıl səylər xalqımızın mənəvi yaddaşının qorunmasına yönəlmişdir. Azərbaycan dilinin müstəqil dövlətin rəsmi dili, beynəlxalq aləmdə tanınan bir ünsiyyət vasitəsi və milli-mənəvi irsimizin əsas sütunu kimi inkişaf etməsi gələcəyə yönəlik tarixi nailiyyətlərimizdir. ölkə başçısının Azərbaycan dili haqqında fikirləri də ana dilimizə hörmət və qayğının göstəricisidir: "Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz – Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq". Milli varlığımızı özündə təcəssüm etdirən ana dilimizi göz bəbəyi kimi qoruyub saxlamaq, inkişaf etdirmək, gələcək nəsillərə ötürmək hər birimizin borcudur.

"Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır".

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubiley yığıncağında çıxışı zamanı belə çağırış edən Prezident İlham Əliyev bildirib ki, dövlət, alimlər,

dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Azərbaycan Prezidenti bu məsələ ilə daim məşğul olacağını, lazımı tədbirlər görəcəyini də bildirib. Bu, dövlət başçısının Azərbaycan dilinin (türkcəsinin) qorunması, inkişafı ilə bağlı etdiyi növbəti çıxışdır, onun dövlət dilinin inkişafı və müdafiəsinə hər zaman diqqət verdiyinin göstəricisidir.

**Müzakirə:**

"Kitabxanada "Ana dilimizi necə qoruyaq?", Ana dilimizi sevək, qoruyaq və yaşadaq!" mövzusunda müzakirə təşkil edə bilərik. Müzakirənin keçirilməsində məqsəd oxucularda Azərbaycan dilinə sevgi və hörmət hissini gücləndirmək, ana dilinin qorunmasının vacibliyini onlara izah edilməsidir. Ana dilinin milli kimliyin, tariximizin və mədəniyyətimizin əsas daşıyıcısı olduğu vurğulanmalıdır. Tədbiri giriş sözü ilə açan kitabxanaçı mövzu haqqında fikirlərini bölüşdükdən sonra müzakirə sualları ilə davam edir.

Belə tədbirlər adətən 1 Avqust - Azərbaycan əlifbası və Azərbaycan dili günü ərəfəsində, 21 fevral ana dili günü tarixində, xüsusi önəm daşıyır. Belə tədbirlərin məqsədi uşaqlara və gənclərə ana dilinə sevgi və hörmət hissini gücləndirmək, dilimizin saflığını qorumağın vacibliyini aşılamaq, düzgün və mədəni nitq bacarıqlarını inkişaf etdirməkdir.

**Kitabxanaçı:** Hörmətli iştirakçılar! Bu gün "Ana dilimizi necə qoruyaq?" mövzusunda müzakirə keçirmək üçün toplaşmışıq. Ana dili xalqın tarixi yaddaşı, milli kimliyi və mənəvi sərvətidir. Dilimizi qorumaq hər birimizin vətəndaşlıq borcudur.

Dil mədəniyyəti insanın fikirlərini aydın, düzgün və təsirli ifadə etmək bacarığıdır. Yüksək nitq mədəniyyəti cəmiyyətin ümumi mədəni səviyyəsinin göstəricilərindən biridir. Müasir dövrdə sosial şəbəkələrin və informasiya texnologiyalarının geniş yayılması dilimizin saflığının qorunmasını daha da vacib edir. Dil mədəniyyəti insanın fikirlərini aydın, düzgün və təsirli ifadə etmək bacarığıdır. İnsanda yüksək nitq mədəniyyəti cəmiyyətin ümumi mədəni səviyyəsinin göstəricilərindən biridir. Müasir dövrdə sosial şəbəkələrin və informasiya texnologiyalarının geniş yayılması dilimizin saflığının qorunmasını daha da vacib edir.

Azərbaycan dili zəngin söz ehtiyatına, qədim tarixə və böyük ədəbi ənənələrə malikdir. Dilimizin qorunması və inkişafı isə hər bir vətəndaşın mənəvi məsuliyyətidir.

Dilimizin qorunmasının təbliği haqqında hazırlanmış bədii gecədə Səməd Vurğun, Bəxtiyar Vahabzadə və Süleyman Rüstəmin ana dili mövzusunda şeirlərinin səsləndirilə bilər**.** Oxucular tərəfindən aforizmlərin və kəlamların təqdim edilə bilər. Azərbaycan dilinin nə qədər şeirə bənzədiyini, xoş ahəngli olduğunu dəfələrlə eşitmişik. Buna görə biz dilimizlə fəxr etməliyik. Hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini gərək ən incəliklərinə qədər bilməli və bu dildən istifadə etməlidir. Sözsüz ki, tarixin ayrı-ayrı dövrlərində ana dilimizin inkişafına süni maneələr yadılmışdır. Hətta 30-ci illərdə dil məsələsini qabardanlar

Sibirə sürgün olunurdu. Ümummilli Lider Heydər Əliyev Azərbaycan dilinə dövlət dili statusunun verilməsini təmin edə bilmişdir.

Azərbaycanlıların harada olmasından asılı olmayaraq öz dilinə, milli kimliyinə olan sevgisi birmənalıdır. Çünki bizi bir xalq, dövlət kimi dünyaya tanıdan danışdığımız dildir. Qalib ölkənin xalqının dilində səslənən zəfər kəlməsi sözsüz ki, bu gün hər bir Azərbaycanlı üçün ən qürurverici məqamdır.

*Fonda nəğmə səslənir*

**"Kitab oxumaq nitqimizi necə zənginləşdirir?"**

Uşaqlarda kitab oxumağa maraq yaratmaq, söz ehtiyatını zənginləşdirmək, düzgün və ifadəli nitq bacarıqlarını inkişaf etdirmək üçün "Kitab oxumaq nitqimizi necə zənginləşdirir?" başlıqlı kitabxanada mütaliə həftəsi təşkil edə bilərik. Həftə boyu təşkil olunacaq tədbirlərdə məqsədimiz uşaqlarda mütaliənin şəxsi inkişaf və təhsil üçün əhəmiyyətini izah etmək, daha çox kitab oxumağın fikirlərimizi yaxşı izah etməkdə lazım olduğunu çatdırmaqdır.

*Tədbiri kitabxanaçı giriş sözü ilə açdıqdan sonra onlara bu günkü görüşün məqsədi haqqında danışılır.*

**Kitabxanaçı:** Əziz uşaqlar!

Bugünkü görüşümüzün mövzusu "Kitab oxumaq nitqimizi necə zənginləşdirir?" adlanır. Məlumdur ki, kitab insanın ən yaxın dostu, ən etibarlı müəllimidir. Oxuduğumuz hər yeni kitab bizə yeni sözlər öyrədir, fikirlərimizi daha gözəl ifadə etməyə kömək edir və dünyagörüşümüzü genişləndirir. Düzgün danışmaq isə, fikrimizi aydın çatdırmaq və gözəl yazmaq üçün ən yaxşı vasitələrdən biridir. Düzgün danışmağın müsbət xüsusiyyətləri isə əsas odur ki, fikirin dinləyici tərəfindən asan başa düşülür. Az mütaliə edən insan isə çətin və dolaşıq cümlələrdən daha çox istifadə edir. Ümumiyyətlə düzgün danışmaq o deməkdir ki, sözləri yerində işlədilir, bununlada fikrimizi aydın deyirik, Gəlin fikir verək kitab oxuyan, şeir öyrənən və maraqlı hekayələr danışan uşaqların nitqi daha zəngin və ifadəli olur. Düzgün danışmaq bundan başqa hər bir insanın mədəniyyətinin də göstəricisidir. Ana dilini sevən, kitab oxuyan və sözün dəyərini bilən insan həm özünü daha yaxşı ifadə edir, həm də cəmiyyətin mənəvi inkişafına töhfələr verə bilir. Buna görə də düzgün və gözəl danışmaq bacarığını kiçik yaşlardan formalaşdırmaq və daim inkişaf etdirmək hər birinizdə vacibdir. Əziz uşaqlar! Hər oxuduğunuz kitab sizə yeni bilik, yeni söz və yeni düşüncə bəxş edir. Kitablarla dostluq edən insan daha gözəl danışır, daha yaxşı yazır və həyatda uğur qazanmaq üçün möhkəm təməl yaradır. Gəlin hər gün heç olmasa 20–30 dəqiqə mütaliə edək, ana dilimizi sevək və nitqimizi daha da zənginləşdirək." Bunun üçün kitabxanalarda həmişə xidmətinizdədir. Kitabları oxumaq üçün yalnız bir şüarımız olmalıdır "Bu gün oxunan bir kitab, sabah gözəl nitqin və zəngin düşüncənin açarıdır!"

Kitabxana tədbirlərində uşaqların nitq mədəniyyətini inkişaf etdirmək, gündəlik danışıqda nəzakətli sözlərdən istifadə vərdişini formalaşdırmaq, düzgün ünsiyyət və nitq mədəniyyətini inkişaf etdirmək, hörmət, mehribanlıq və əməkdaşlıq hissini

aşılamaq üçün kiçikyaşlı uşaqlarla üçün həm əyləncəli, həm də öyrədici bir vasitə kimi gündəlik həyatda istifadə olunan nəzakətli sözlər əsasında *“Gözəl danışaq, ana dilimizi sevək!”* adlı tədbir hazırlaya bilərik. Tədbirin məqsədi uşaqlarda düzgün və səlis nitq bacarıqlarını aşılamaqla yanaşı ana dilinə sevgi və hörmət hissini aşılamaq, onların oxu mədəniyyətini və söz ehtiyatını zənginləşdirmək, kitaba və mütaliəyə marağı artırmaqdır. Bundan başqa kiçikyaşlı məktəblilərlə *“Nəzakətli sözlər səbəti”və ya “Sehrli sözlər”adlı* oyun təşkil edə bilərik. Oyun gedişində uşaqlardan gündəlik həyatda istifadə etdikləri nəzakət sözlərini deməkləri xahiş olunacaq. Tədbiri başlamazdan əvvə kitabxanaçı uşaqlara izah verir.

**Kitabxanaçı:** Əziz balalar! “İndi biz nəzakətli sözlər ölkəsinə səyahət edəcəyik. Mən müxtəlif vəziyyətlər deyəcəyəm, siz isə həmin vəziyyətdə işlədilən ən uyğun nəzakətli sözü söyləyəcəksiniz.”
Uşaqlar siz səhər müəlliminizi və ya dostunuzu görəndə nə deyirsiniz?
**Uşaqlar:** Salam!

**Kitabxanaçı:** Kimsə sizə hədiyyə verəndə nə deyirsiniz?
**Uşaqlar:** Təşəkkür edirəm!

**Kitabxanaçı:** Kimdənsə kömək istəyəndə hansı sözü işlədərsiniz?

**Uşaqlar** : Zəhmət olmasa...

**Kitabxanaçı:** Təsadüfən kiməsə toxunanda nə deyirsiniz?

**Uşaqlar:** Bağışlayın!

**Kitabxanaçı:** Ayrılarkən nə deyirsiniz?

**Uşaqlar:** Sağ olun! və ya Sağlıqla qalın!

**Kitabxanaçı:** Bir şeyi alarkən bəs necə müraciət edirsiniz?

**Uşaqlar:** Zəhmət olmasa, bunu mənə verə bilərsiniz?
**Kitabxanaçı:** Biz nəzakətli danışmaq üçün daha çox hansı sözlərdən istifadə etdik?

**Uşaqlar:** Salam
Zəhmət olmasa
Təşəkkür edirəm
Bağışlayın

Sağ olun

Bundan başqa uşaqlarda nitq mədəniyyətinin yaxşılaşdırılması üçün kitabxanada “Hansı müraciət forması daha düzgündür? adlı oyun təşkil edə bilərik. ” Oyun əsnasında kitabxanaçı iki cümlə oxuyur, iştirakçılar isə doğru müraciət formasını seçirlər.

× Mənə kitab ver!

✓ Zəhmət olmasa, mənə kitabı verə bilərsiniz?

× Mənə dəymə!

✓ Bağışlayın, təsadüfən toxundum.

× Hədiyyəni aldım, heç nə demədim.

✓ Təşəkkür edirəm, çox sevindim.

Belə oyunlar kitabxana tədbirlərində uşaqların nitq mədəniyyətini inkişaf etdirmək, gündəlik danışıqlarında nəzakətli sözlərdən istifadə vərdişini formalaşdırmaq üçün həm əyləncəli, həm də öyrədici bir fəaliyyət kimi gözəl vasitədir.

***Kitabxanaya ekskursiya:***

Uşaqlara ana dilimizin gözəlliyini onlara kitablara sevgi yaratmaqla daha sevdirə bilərik. Belə tədbirlər məktəb şagirdlərinin kitabxanaya ekskursiyası zamanı daha yaxşı olar. *“Biliklər dünyasına səyahət”* adlı təşkil edilmiş ekskursiyada şagirdlər kitabxana ilə yaxından tanış olub, kitabxanadan istifadə qaydaları haqqında məlumat alarlar. Ekskursiyanın məqsədi ana dili və nitq mədəniyyətinin inkişafına mütaliə vasitəsi ilə dəstək olmaq, kitab oxumağın faydası, nə üçün lazım olması haqında şagirdlərə məlumat verməkdir. Tədbirdə şagirdləri ilk öncə kitabxanaçı kitabların, biliklərin və maraqlı kəşflərin məkanı olan kitabxanaya gəldikləri üçün salamlayır. “Kitabın gəldiyi yol” adlı söhbətdə isə uşaqlara kitabın necə hazırlanması, kitabxanaya necə gəlməsi, oxucunun kitabı necə seçməsi barədə məlumat verir. Daha sonra kitabxanaçı kitabxananın müxtəlif bölmələri ilə iştirakçıları tanış edir, kitabların necə qorunduğunu və oxuculara necə təqdim olunduğunu çatdırır.

Sonda kitabxanaçı uşaqlara müraciətlə: “Kitab hər bir insanın ən yaxın dostlarından biridir. Nə qədər çox oxusaq, bir o qədər çox öyrənər, daha düzgün danışar və daha zəngin söz ehtiyatına sahib olarıq. Ümid edirik ki, bugünkü ekskursiyadan sonra kitabxananın daimi oxucularından olacaqsınız.”

**Kitab icmalı:**

*“Ana dilimizi kitablarla sevək və zənginləşdirək!”* adlı kitab icmalının təşkili ilə kitabxanaçı, oxucuları maraqlı və dəyərli kitablarla tanış edə bilər, onlarda mütaliə mədəniyyətini və kitab oxumağa marağı artıra bilər, düşünmə, müzakirə və nitq bacarıqlarını inkişaf etdirə bilər.

*"Eşq olsun Azərbaycan dilinə" mövzusunda qısa video və ya slayd nümayiş olunur*

**Kitabxanaçı:** "Əziz oxucular! Kitab insanın ən yaxın dostu, bilik və mənəvi zənginlik mənbəyidir. Bu gün təqdim edəcəyimiz kitablar bizi yeni düşüncələrə, maraqlı hadisələrə və fərqli qəhrəmanların dünyasına aparacaq. Ümid edirik ki, bu icmal hər birinizdə mütaliəyə daha böyük həvəs yaradacaqdır" Çünki kitab oxumaqla siz  təkcə məlumat əldə etmək deyil, həm də təhlil etmək, müqayisə aparmaq və fikri əsaslandırmaq bacarığını inkişaf etdirə bilərsiniz. Bu bacarıqlar zəngin və mədəni nitqin formalaşması üçün hər birinizə şərait yaradacaqdır.

Müntəzəm kitab oxuyan insanlar yeni sözlər, ifadələr və deyimlərlə tanış olur, onları gündəlik nitqində istifadə etməyi öyrənirlər. Bu isə ana dilinin imkanlarından daha səmərəli istifadə etməyə onlara komək edir. Daha çox bədii və elmi ədəbiyyatın mütaliəsi cümlələrin düzgün qurulmasını, fikirlərin aydın və məntiqli ifadə edilməsini oxucuya öyrədir. Oxucu dilin qrammatik və üslubi normalarını mənimsəyərək daha səlis danışır.

"Göyərçin" kitabxanası seriyasından olan Rafiq Yusifoğlunun 2007-ci il 8-9-cu sayı "Ana dilim " nəşri  kiçikyaşlılar üçün Ana dilinin təbliği üçün çox maraqlı vəsaitdir.

**Yusifoğlu Rafiq Ana dilim. - Bakı : Azərbaycan nəşriyyatı, 2007. - 26 s.**




Rafiq Yusifoğlu tərəfindən yazılmış "Ana dilim" kitabında uşaqlarda ana dilinə sevgi, dilimizin zənginliyinə hörmət və düzgün danışıq vərdişlərinin formalaşdırılması məqsədi daşıyan şeirlər toplanmışdır. Bu kitab ilk dəfə 2007-ci ildə nəşr olunmuşdur və dilçilik mövzularını uşaqlara bədii şəkildə öyrədən şeirləri ilə tanınır. Kitabxanada kitabın təqdimatını keçirə bilərik, hazırlanan tədbirlərdə kitabda yer alan  şeirlərdən istifadə edə bilərik.

**Əlifbam:**

Oxumağı, yazmağı
Öyrənmişəm təzəcə.
Misra cığırlar üstdə
Baxışlarım kəsəcək.

Kitablar həsrət ilə
Yolumuzu gözləyər.
Sən dönmüsən gözümdə
Sehirli bir güzgüyə....

*Ana dilinin yaxşılaşdırılmasında nağıl və xalq ədəbiyyatının rolu*




**Azərbaycan xalq nağılları : nağıllar . - Bakı : Qanun; Əli və Nino nəşriyyatı, 2017. - 80 s. : rəngli il.**

Milli-mənəvi dəyərlərin aşılanması xalqın adət-ənənələri, folkloru, atalar sözləri və nağılları ilə nəsildən-nəslə ötürülür. Uşaqlarda vətənpərvərlik hissinin formalaşdırılması da onun ana dilinə sevgi və hörmətindən dən başlayır. Nağıllar və xalq ədəbiyyatı uşaqların ana dilini mənimsəməsində, onlarda nitq mədəniyyətinin formalaşmasında və söz ehtiyatının zənginləşməsində mühüm rol oynayan nümunələrdən biridir. Nəsildən-nəslə ötürülən bu zəngin irs dilimizin saflığını, gözəlliyini və ifadə imkanlarını yaşadır, dilimizin incəliyini öz ruhunda oxuculara sevdirir. Uşaqların nağıllarımızla böyüməsinin müsbət cəhətlərinin əsası onların söz ehtiyatını artırmasıdır. Uşaqlar nağıllar vasitəsilə yeni sözlər, ifadələr və atalar sözləri öyrənir, düzgün nitq bacarığı formalaşdırırlar. Nağılların bədii dili uşaqların fikirlərini ardıcıl və səlis ifadə etməsinə kömək edir.Onlarda dinləmə və danışma vərdişlərini inkişaf etdirdiyindən nağılı dinləyib, sonra isə danışmaq nitq bacarıqlarını gücləndirir.Yaddaşı və təxəyyülü inkişaf etdirən nağıllar sonradan hadisələri və qəhrəmanları xatırladaraq uşağın düşünmə qabiliyyətini artırır, onlarda ana dilinə sevgi yaradır. Nağılların melodik və obrazlı dili uşaqlarda dilə maraq və hörmət hissini gücləndirir. Uşaqların fantaziyasını zənginləşdirən onları öz hekayələrini danışmağa, səhnəciklər hazırlamağa və yaradıcı düşünməyə həvəsləndirir. Kitabxanada oxucularla *"Nağıllar aləminə səyahət"* adlı nağıl saatı, oxucuların sevilən nağıllardan parçaların ifadəli oxuması ilə bədii qiraət müsabiqəsi, uşaqların yarımçıq qalan nağılı öz təxəyyülləri ilə davam etdirirməsi ilə "*Nağılı tamamla"* oyunu, "*Xalq ədəbiyyatı xəzinəsi"* adlı kitab sərgisi, atalar sözləri və tapmacalar əsasında hazırlanmış viktorina, nağıl qəhrəmanlarının canlandırıldığı kiçik teatr tamaşaları və s. təşkil edə bilərik.

**Kitab icmalı:**

**"Azərbaycan xalq nağılları" kitabı üzrə kitab icmalı**

Müxtəlif nağılları özündə birləşdirənb kitabda yer alan nağıllar uşaqlarda oxu vərdişlərinin formalaşmasına, söz ehtiyatının zənginləşməsinə və nitq mədəniyyətinin inkişafına müsbət təsir göstərir. Kitab kiçik yaşlı oxucular üçün maraqlı və faydalıdır. Azərbaycan xalq nağıllarından ibarət kitab xalq ədəbiyyatı, nağılları toplusudur. Qanun Nəşriyyatında 2017-ci ildə çap edilmiş kitabda "Azərbaycan xalq nağılları" kitabında xalqımızın əsrlər boyu yaratdığı və nəsildən-nəslə ötürdüyü ən məşhur nağılları toplanmışdır. Kitabda *"Cırtdan",*

*“Məlikməmməd”, “Göyçək Fatma”, “Təpəgöz”, “Nar qızı”, “Ağıllı qız”,* “Sehrli üzük” və digər maraqlı nağıllar yer alır. Bu nağıllarda xeyirlə şərin mübarizəsi əsas mövzulardan biridir. Əsərlərin qəhrəmanları öz ağlı, cəsarəti və dürüstlüyü sayəsində çətinliklərə qalib gəlirlər. Bu nağıllar uşaqlarda mərdlik, dostluq, xeyirxahlıq, vətənpərvərlik və zəhmətsevərlik kimi müsbət keyfiyyətlərin formalaşmasına kömək edir. Dili sadə və anlaşıqlı dili olan kitabda hadisələrin maraqlı süjeti oxucuların diqqətini cəlb edir, onun təxəyyülünü inkişaf etdirir. Nağıllarda sehrli hadisələr, qeyri-adi qəhrəmanlar və xalq müdrikliyi geniş şəkildə əks olunmuşdur. Kitab milli-mənəvi dəyərlərimizi, xalqımızın dünyagörüşünü və zəngin folklorunu öyrənmək üçün dəyərli mənbədir. Bu kitab həm uşaqların, həm də böyüklərin maraqla oxuya biləcəyi bir əsərlər toplusudur. Nağıllar oxuculara xeyirxahlıq etməyi, doğru danışmağı və çətinliklər qarşısında iradəli olmağı aşılayır.

**Xalq ədəbiyyatının əhəmiyyəti:**

Ədəbiyyatımızda nağıllar, dastanlar, atalar sözləri, bayatılar, tapmacalar və laylalar daxil olan xalq ədəbiyyatı  nümunələri hər zaman dilimizin zənginliyini və milli xüsusiyyətlərini qoruyub, uşaqlara düzgün tələffüz və ifadə bacarığı qazandırıb, onlara milli-mənəvi dəyərləri və vətənpərvərlik hissini aşılayıb, məntiqi düşünmə və yaradıcı təfəkkürü inkişaf etdirmişdir.

Kitabxanada nağılların təbliği ilə bağlı keçirilən tədbirlər uşaqlarda mütaliə vərdişinin, nitq mədəniyyətinin, yaradıcı təfəkkürün və ana dilinə sevginin formalaşdırılması baxımından böyük əhəmiyyət daşıyır. Kitabxanada bu məqsədlə aşağıdakı tədbirlər *“Nağıllar aləminə səyahət”* adlı nağıl saatı, uşaqlar arasında nağıl oxu və bədii qiraət müsabiqəsi, tapmaca və atalar sözləri viktorinası, nağıl qəhrəmanlarını tanıyaq adlı intellektual oyun, xalq ədəbiyyatı xəzinəsi mövzusunda kitab sərgisi, uşaqların sevdikləri nağılın  səhnələşdirməsin təşkil edə bilərik.



Uşaqlarda mütaliəyə maraq yaratmaq, ana dilini sevdirmək, nitq mədəniyyətini inkişaf etdirmək və xalq nağıllarını təbliğ etmək üçün Cırtdan nağılı əsasında ibtidai sinif və kitabxana tədbirləri üçün səhnəcik təşkil edə bilərik. İlk öncə Səhnə qurulur, iştirakçılar gəlir səhnəyə.

Aparıcı

Cırtdan

Uşaqlar (2–3 nəfər)

Div

**Aparıcı:** Əziz uşaqlar! Bu gün sizi Azərbaycan nağıllarının sehrli aləminə aparacağıq. İndi isə hamımızın sevdiyi "Cırtdan" nağılından bir parçaya baxaq.

*(Cırtdan və dostları səhnəyə çıxırlar.)*

**Uşaq 1**: Cırtdan, meşəyə getməkdən qorxmursan?

**Cırtdan:**Yox, qorxmuram. Ağıllı və cəsur insan hər çətinliyin öhdəsindən gələ bilər.

*(Div səhnəyə çıxır.)*

**Div:** Mən sizi tutacağam!

**Uşaqlar:** Ay aman, Div gəldi!

**Cırtdan:** Qorxmayın, dostlar. Mən bir yol taparam.

**Div:** Siz buradan qaça bilməyəcəksiniz!

**Cırtdan:** Güc hər şey deyil. Ağıl daha qüvvətlidir.

*(Cırtdan öz ağılı ilə Divi aldadır və uşaqları xilas edir.)*

**Uşaqlar:** Yaşasın Cırtdan! Yaşasın dostluq və cəsarət!

**Aparıcı:** Bu nağıl bizə öyrədir ki, ağıl, cəsarət və dostluq insanı hər zaman uğura aparır. Gəlin nağıllarımızı oxuyaq, sevək və qoruyaq!

*(Tədbir iştirakçılarının birgə "Nağılları oxuyaq!" şüarı ilə yekunlaşır.)*

## Kitabi-Dədə Qorqud

Əsərin mərkəzində Dədə Qorqud adlı müdrik ozan və ağsaqqal dayanır. Günümüzə çatan mətn müqəddimə və on iki boydan ibarətdir, burada igidlik, ailə sədaqəti, dostluq, ədalət, vətənə bağlılıq və qəhrəmanlıq əsas mövzular kimi təqdim olunur. Dastanlarda həm qədim oğuz inanclarının, həm də islam dövrünün təsirləri birlikdə görünür.

### Tarixi və əlyazmaları

Əsərin hekayələri uzun müddət şifahi ənənədə yaşadıqdan sonra orta əsrlərdə yazıya alınmış hesab edilir. Uzun illər elmdə əsasən Drezden və Vatikan əlyazmaları tanınmış, sonrakı dövrdə üçüncü əlyazma nüsxəsi də elmi dövriyyəyə daxil edilmişdir. Bu əlyazmalar dastanın formalaşma tarixini və Oğuz mədəniyyətinin inkişafını öyrənmək üçün əsas mənbələrdir. Kitabi-Dədə Qorqud yalnız ədəbi əsər deyil, həm də qədim oğuzların sosial quruluşu, adət-ənənələri, dil xüsusiyyətləri və dünyagörüşünü əks etdirən mühüm tarixi-mədəni qaynaqdır. Dastan Azərbaycan ədəbiyyatı, folklorşünaslığı və türkologiyada əsas tədqiqat mövzularından biridir və

türk xalqlarının ortaq irsinin simvollarından sayılır. 2018-ci ildə Dədə Qorqudun epik mədəniyyəti, xalq nağılları və musiqisi Azərbaycan, Qazaxıstan və Türkiyənin birgə nominasiyası ilə UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir. Bu tanınma dastanın beynəlxalq mədəni əhəmiyyətini və türk xalqlarının ortaq irsində tutduğu xüsusi yeri təsdiqləyir. ana dilinin zənginliyini, nitq mədəniyyətini və milli-mənəvi dəyərləri özündə yaşadan ən qiymətli ədəbi abidələrdən biridir. Bu əsərdən dil mədəniyyəti və ana dili mövzusunda keçirilən kitabxana tədbirlərində müxtəlif formalarda istifadə bilərik.

**1. Bədii qiraət**
Dastanın müqəddiməsindən və boylarından dil, söz, ağsaqqallıq və vətən sevgisi ilə bağlı parçaların ifadəli oxunması bədii qiraət tədbirlərinin təşkilini daha maraqlı edər.
**Kitab sərgisi**
Bundan başqa zəngin dil xüsusiyyətlərini özündə birləşdirən Kitabi-Dədə Qorqud" əsəri əsasında sərgi hazırlaya bilərik.
Sərgi başlıqları:
"Ana dilimizin əbədi abidəsi – Kitabi-Dədə Qorqud"
"Dilimizi yaşadan söz xəzinəsi""Qədim sözlərdən müasir nitqə"
**Kitab icmalı**
Əsərin oxumağa maraq yaratmaq üçün dili, üslubu, atalar sözləri, müdrik kəlamları və Azərbaycan dilinin inkişafındakı rolu haqqında kitabxanada məktəb yaşlı oxucularla icmal keçirə bilərik.

**Viktorina**
**Dastanın mütaliəsinə oxucuların cəlb edilməsi üçün tədbirlərdə viktorinada təşkil edə bilərik.**
İştirakçılar üçün suallar:
Dədə Qorqud kimdir?
Dastan neçə boydan ibarətdir?
Əsərdə hansı milli-mənəvi dəyərlər tərənnüm olunur?
Dastanın dil xüsusiyyətləri hansılardır?

*Kitabi-Dədə Qorqud" dastanında "Kitabi-Dədə Qorqudda ana dili sevgisi" mövzusu əsasında* "Dədə Qorqudun hikmətli sözləri və nitq mədəniyyəti", "Milli kimliyimizin aynası – ana dilimiz" dəyirmi masa, konfranslar təşkil edə bilərik.
**Səhnəcik**
Dastanın məşhur boylarından qısa səhnələrin hazırlanması, xüsusilə Dədə Qorqudun nəsihətlərinin canlandırılmasından ibarət səhnələrin yer alması ana dilimizin bir daha zənginliyini göstərəcək. Tədbir zalında Dədə Qorqudun hikmətli kəlamlarından ibarət guşənin hazırlanması və həmin fikirlərin izahı daha maraqlı

olacaq. Təşkil edəcəyimiz tədbiridə istifadə oluna biləcək aparıcı mətnini təqdim edirik:

"Əziz qonaqlar! Bu gün biz ana dilimizin zənginliyini və gözəlliyini özündə yaşadan möhtəşəm söz abidəsi – "Kitabi-Dədə Qorqud" haqqında danışacağıq. Bu ölməz dastan əsrlər boyu xalqımızın dilini, adət-ənənəsini, müdrikliyini və milli ruhunu özündə qoruyub yaşatmışdır. Dədə Qorqudun hikmətli sözləri bu gün də nitq mədəniyyətimizin formalaşmasında mühüm əhəmiyyət daşıyır. Ana dilimizi sevmək və qorumaq hər birimizin müqəddəs borcudur." Belə bir təqdimat kitabxanalarda keçirilən *"Ana dili və nitq mədəniyyəti", "Lüğətlər və nitq mədəniyyəti" və "Ana dilimizin zəngin söz xəzinəsi"* mövzulu tədbirlər üçün çox uyğun olar.

Lüğətlər də nitq mədəniyyətinin formalaşmasında mühüm rol oynayan əyani vasitələrdəndir. İnsanlar lüğətlərdən istifadə etməklə sözlərin düzgün yazılışını, tələffüzünü və mənasını öyrənir, söz ehtiyatlarını zənginləşdirirlər. Bu isə onların daha səlis, aydın və təsirli danışmasına kömək edir. Nitq mədəniyyətinin əsas şərtlərindən biri sözləri yerində və düzgün işlətməkdir. Orfoqrafiya, izahlı, sinonimlər və frazeoloji lüğətlər dil normalarının mənimsənilməsinə, nitqdə yol verilən səhvlərin aradan qaldırılmasına xidmət edir. Lüğətlərdən müntəzəm istifadə edən şəxslərin söz ehtiyatı artır, danışıq və yazı bacarıqları inkişaf edir, fikirlərini daha dəqiq ifadə etmək imkanı yaranır, ana dilinə maraq və hörmət güclənir. Buna görə də lüğətlər nitq mədəniyyətinin inkişafında etibarlı mənbə və ən yaxşı köməkçilərdən hesab olunur.

Lüğətlərin təbliği üçün hazırladığımız sərgi və ya tədbir üçün başlıqlar bunlar ola bilər.

"Lüğətlərə müraciət et, nitqini zənginləşdir!"

"Düzgün söz, gözəl nitq!"

"Lüğət bilik xəzinəsidir."

Lüğətlərdən müntəzəm istifadə edən şəxslərin nitq və dil bacarıqlarını inkişaf etdirən vəsaitlər kimi sərgidə

Azərbaycan dilinin izahlı lüğəti,

**Azərbaycan dilinin orfoqrafiya lüğəti. - Bakı : Lider nəşriyyatı, 2004. - 728 s.**

**Azərbaycan dilinin Frazeoloji lüğət. - Bakı : TEAS PRESS Nəşriyyat evi, 2020. - 156 s.**

**Azərbaycan dilinin antonimlər lüğəti, Bakı, "Şərq-Qərb", 2007.**

**Azərbaycan dilinin omonimlər lüğəti, Azərbaycan dilinin omonimlər lüğəti - Təkrar nəşr. - Bakı : Şərq-Qərb, 2007. - 168 s.**

Dil millətin yaranışı və inkişafı ilə meydana gəlir. Buna uyğun olaraq, elmi rəylərə görə, Azərbaycan dilinin inkişafı III-VII əsrlərdə başlayıb, XI əsrdə Qafqazda və qonşu ölkələrdə geniş yayılıb, XII əsrdə isə ədəbi dil kimi tam formalaşıb. Səfəvilər dövlətində saray və ordu dili kimi dövlətin ilk rəsmi dili Azərbaycan dili olub.
Əski dövrün Azərbaycan dilinin leksik tərkibi ərəb və fars sözlərinin çoxluğu ilə seçilir. Zaman-zaman Azərbaycan dili "türki", "türk dili", "Azərbaycan türkcəsi", "tatar dili", "Qafqaz tatarlarının dili" kimi adlandırılıb. 1929-1939-cu illərdə latın qrafikalı əlifbamız sonra kiril əlifbası ilə əvəz edilib. 1991-ci ildən Azərbaycan yenidən latın qrafikalı əlifbaya keçilib. Ana dilinin müasir anlamda dövlət dili kimi işlənməsini vacib edən ilk qəti rəsmi sənəd Azərbaycan Xalq Cumhuriyyətinin 1918-ci il iyunun 27-də Azərbaycan dilinin dövlət dili elan edilməsilə bağlı olub. Qeyd edək ki, o vaxt dilimiz "Türk dili" adlanırdı. AXC 1918-ci il avqustun 28-də ibtidai və orta təhsil müəssisələrində təhsilin ana dilində aparılması haqqında qərar qəbul edib. Sonra isə müasir Azərbaycan dövlətinin memarı Ümummilli liderimiz Heydər Əliyev dilimizə, mədəniyyətimizə həmişə xüsusi qayğı göstərib. Onun 2001-ci ildə dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi naminə verdiyi Fərman da bu qayğının nümunəsidir. 2004-cü ildə Naxçıvan şəhərində dilimizin şərəfinə "Ana dili" adlı abidədə ucaldılıb. Prezident İlham Əliyevin 2018-ci il noyabrın 1-də imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı da, dövlətimizin, onun ali rəhbərliyinin Ana dilimizə olan həssas, qayğıkeş münasibətini əks etdirir.
Şükürlər olsun ki, bu gün Vətənimizin əsas atributları olan üçrəngli Bayrağımız, səkkizguşəli Gerbimiz, qəlb oxşayan Himnimiz və özümüzə məxsus gözəl, rəvan dilimiz var.
Kitabxanada *"Nitq mədəniyyətinin inkişafı" mövzusunda tədbirin ssenarisi "Gözəl danışaq, düzgün danışaq!"* adlı tədbir ssenarisi hazırlaya bilərik. Tədbirin keçirilməsinin məqsədi uşaqlarda düzgün və səlis danışıq bacarıqlarını inkişaf etdirmək, ana dilinə sevgi və hörmət hissini aşılamaq, mütaliənin və kitabın nitq mədəniyyətinin formalaşmasındakı rolunu təbliğ etməkdir. Tədbiri giriş sözü ilə açan aparıcı iştirakçıları salamlayır.
**Aparıcı:** Salam, əziz müəllimlər, valideynlər və sevimli uşaqlar! Sizi kitabxanamızın təşkil etdiyi *"Gözəl danışaq, düzgün danışaq!"* adlı tədbirdə salamlayırıq. Dil hər bir xalqın mənəvi sərvəti, milli kimliyinin göstəricisidir. Düzgün və mədəni danışmaq isə insanın savadının, tərbiyəsinin və dünyagörüşünün aynasıdır. Kitab oxuyan, zəngin söz ehtiyatına malik olan insan öz fikirlərini daha aydın və təsirli ifadə edə bilir. Əziz uşaqlar! Nitq mədəniyyəti yalnız düzgün söz işlətmək deyil, həm də qarşı tərəfə hörmətlə yanaşmaq, nəzakətli olmaq və fikri aydın ifadə edə bilmək bacarığıdır. Kitab oxumaq bizim söz ehtiyatımızı artırır, nağıllar və hekayələr isə düşüncəmizi zənginləşdirir. Hər oxuduğumuz kitab bizə yeni sözlər və yeni fikirlər qazandırır. Gəlin mənim fikirlərimi tamamlayaq: Bu gün

birlikdə müxtəlif oyunlar, şeirlər, tapmacalar və müsabiqələr vasitəsilə nitq mədəniyyətimizin gözəlliyini kəşf edəcəyik. Gəlin gözəl bir şeiri dinləyək:

( İştirakçı gəlir səhnəyə)

**Şagird:** ***Ana dilim***

Ana dilim, şirin dilim,
Varlığımsan hər bir an.
Sənin ilə düşünürəm,
Sənin ilə oluram mən.\

Sözlərinlə böyüyürəm,
Kitablarla dost oluram.
Düzgün danış, gözəl danış –
Bu nəsihətlə yaşayıram.

**Aparıcı:** Əziz balalar sizin bütün gələcək uğurlarınız dilimizi necə öyrənməyinizdən asılıdır. Dilimizi öyrənib onu sevməliyik.

(*Aparıcı başlayır, uşaqlar davam etdirirlər.)*

Kitab insanın ən yaxın ... (dostudur).
Gözəl danışan hər zaman ... (hörmət qazanır).
Ana dili xalqın ... (sərvətidir).
Oxuyan insan çox ... (bilir).

**Aparıcı:** Qeyd etdiyimiz kimi dil millətin yaranışı və inkişafı ilə meydana gəlir. Elmi rəylərə görə, Azərbaycan dilinin inkişafı isə III-VII əsrlərdə başlayıb, XI əsrdə Qafqazda və qonşu ölkələrdə geniş yayılıb, XII əsrdə isə ədəbi dil kimi tam formalaşıb. Səfəvilər dövlətində saray və ordu dili kimi dövlətin ilk rəsmi dili Azərbaycan dili olub.

**Aparıcı:** Leksik tərkibi ərəb və fars sözlərinin çoxluğu ilə seçilən əski dövrün Azərbaycan dili zaman-zaman “türki”, “türk dili”, “Azərbaycan türkcəsi”, “tatar dili”, “Qafqaz tatarlarının dili” kimi adlandırılıb.

**Aparıcı:** Əlifbamız isə 1929-1939-cu illərdə latın qrafikalı olub, sonra kiril əlifbası ilə əvəz edilib. Lakin 1991-ci ildən Azərbaycan yenidən latın qrafikalı əlifbaya keçilib.

**Aparıcı:** Ana dilinin müasir anlamda dövlət dili kimi işlənməsini vacib edən ilk qəti rəsmi sənəd isə Azərbaycan Xalq Cumhuriyyətinin 1918-ci il iyunun 27-də Azərbaycan dilinin dövlət dili elan edilməsilə bağlı olub və dilimiz “Türk dili” adlanıb. Həmçinin 1918-ci il avqustun 28-də ibtidai və orta təhsil müəssisələrində təhsilin ana dilində aparılması haqqında qərar qəbul edilib

**Aparıcı:** Müasir Azərbaycan dövlətinin qurucusu Ümummilli liderimiz Heydər Əliyevdə dilimizə, mədəniyyətimizə həmişə xüsusi qayğı göstərib. Onun 2001-ci ildə dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi naminə verdiyi fərman da bu qayğının nümunəsi olub. 2004-cü ildə Naxçıvan şəhərində dilimizin şərəfinə “Ana dili” adlı abidə ucaldılmasını xüsusi qeyd etmək lazımdır.

**Aparıcı:** Prezident İlham Əliyevin 2018-ci il noyabrın 1-də imzaladığı “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” fərmanı da, dövlətimizin, onun ali rəhbərliyinin ana dilimizə olan həssas, qayğıkeş münasibətinin göstəricisidir.
**Aparıcı:** Şükürlər olsun ki, bu gün Vətənimizin əsas atributları olan üçrəngli Bayrağımız, səkkizguşəli Gerbimiz, qəlb oxşayan Himnimiz və özümüzə məxsus gözəl, rəvan dilimiz var.

**Yusifoğlu Rafiq Ana dilim. - Bakı : Azərbaycan nəşriyyatı, 2007. - 26 s.**

**Ədəbi bədii gecə:**

**Ədəbi bədii gecə**
Ana dilinə sevgi hissini artırmaq, düzgün və zəngin nitq mədəniyyətini təbliğ etmək, bədii ədəbiyyata marağı yüksəltmək üçün kitabxanada “Ana dilimiz – milli kimliyimiz, nitq mədəniyyətimiz” adlı ədəbi - bədii gecə təşkil edə bilərik. Kitabxanada tədbirin keçiriləcəyi zal müəyyən edildikdən sonra səhnənin tərtibatı edilir.

(Azərbaycanın Dövlət Himni səslənir.)

Bundan başqa Azərbaycanın Dövlət Bayrağı, “Ana dilimiz – milli sərvətimizdir”, “Dilimizi qoruyaq, zənginləşdirək!”adlı Azərbaycan klassik və müasir yazıçılarının kitablarından ibarət sərgi təşkil edilir. Fon musiqisi kimi tar və kamança ifası səslənir.Aparıcılar səhnəyə daxil olur:
**Aparıcı I** Salam, hörmətli qonaqlar, əziz müəllimlər və şagirdlər! Sizi ana dilimizin saflığına, zənginliyinə və nitq mədəniyyətinə həsr olunmuş “Ana dilimiz – milli kimliyimiz, nitq mədəniyyətimiz” adlı ədəbi-bədii gecədə salamlayırıq. Dil xalqın tarixidir, yaddaşıdır, mənəvi sərvətidir. Ana dilini qorumaq, onu düzgün və gözəl danışmaq hər birimizin mənəvi borcudur.
**Aparıcı II** Ulu Öndər Heydər Əliyev demişdir **:** “Hər bir xalqın milliliyini yaşadan, inkişaf etdirən onun dilidir.” Bu hikmətli sözlər ana dilimizin xalqımız üçün nə qədər əhəmiyyətli olduğunu bir daha göstərir. Doğurdanda ana dilimizi sevmək yalnız onu danışmaq deyil, həm də onu düzgün, səlis və gözəl danışmaqdır. Nitq mədəniyyəti insanın savadını, dünyagörüşünü və mənəvi zənginliyini əks etdirir. Dil millətin mənəvi pasportudur. Hər xalqın varlığı onun dili ilə yaşayır. Ana dili bizim keçmişimiz, bu günümüz və gələcəyimizdir.
**Aparıcı I** Ana dilimizi sevmək yalnız onu danışmaq deyil, həm də onu düzgün, səlis və gözəl danışmaqdır. Nitq mədəniyyəti insanın savadını, dünyagörüşünü və mənəvi zənginliyini əks etdirir.

**Aparıcı:** Kitab oxumaq nitqimizi zənginləşdirən ən gözəl vasitələrdən biridir. Hər oxunan kitab yeni sözlər, yeni fikirlər və yeni dünyalar deməkdir.Bir neçə şagird müxtəlif müəlliflərin ana dili haqqında fikirlərini səsləndirir.
*Səhnəyə bir neçə şagird gəlir, ana dili haqqında müxtəlif fikirlər səsləndirir:*

**I şagird**
Dil ürəkləri birləşdirən körpüdür.

**II şagird**
Ana dili xalqın mənəvi sərvətidir.

**III şagird**
Kitab oxuyan insanın nitqi gözəlləşir, fikri zənginləşir.

**I şagird**
Gözəl danışmaq üçün çox oxumaq, düzgün yazmaq və sözlərdən yerində istifadə etmək lazımdır.

**II şagird**
Həmdə nitq mədəniyyəti ailədə başlayır, məktəbdə formalaşır, kitab oxumaqla zənginləşir.
(*Ana dili haqqında şagirdlər şeirlər söyləyirlər)*

**Aparıcı I** Əziz dostlar! Ana dili yalnız ünsiyyət vasitəsi deyil. O, milli kimliyimizin, tariximizin və mədəniyyətimizin əsas dayağıdır.

**Aparıcı II** Gəlin ana dilimizi sevək, düzgün danışaq, çox oxuyaq və zəngin Azərbaycan dilini gələcək nəsillərə olduğu kimi çatdıraq.

Bütün iştirakçılar birlikdə:

Ana dilimiz qürurumuzdur!
Ana dilimizi sevək!
Ana dilimizi qoruyaq!
Ana dilimizi yaşadaq**!**
(Fonda “Azərbaycan” və ya “Azərbaycanım” mahnısı səslənir. Tədbir kitab sərgisi ilə tanışlıq və xatirə şəkillərinin çəkilməsi ilə başa çatır.)

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan nağılları. – Bakı: Azərnəşr, 2005–2010.
2. Azərbaycan folkloru antologiyası. – Bakı: Elm, 2009.
3. El arasında nağıllar. – Bakı: Yazıçı, 1987.

Elmi və nəzəri ədəbiyyat

4. Azad Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı. – Bakı: Elm, 2002.
5. Məmmədhüseyn Təhmasib. Seçilmiş əsərləri. – Bakı: Elm, 1988.
6. Mirəli Seyidov. Azərbaycan mifologiyası. – Bakı: Yazıçı, 1983.
7. Paşa Əfəndiyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. – Bakı: Maarif, 1992.
8. Əli Sultanlı. Azərbaycan ədəbiyyatı tarixi. – Bakı: Maarif, 1976.
9. Afad Qurbanov. Müasir Azərbaycan ədəbi dili. – Bakı: Maarif, 1985.
10. Tofiq Hacıyev. Azərbaycan ədəbi dili tarixi. – Bakı: Elm, 1991.
11. Azərbaycan dilinin üslubiyyatı. – Bakı: Elm, 2000.

Əlavə mənbələr

12. Azərbaycan Milli Elmlər Akademiyası. Folklor İnstitutu. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. – Bakı: Elm, müxtəlif illər.
13. Filologiya məsələləri (elmi jurnal). – Bakı: müxtəlif illər.
14. Hüseynova, S. Azərbaycan dili – milli varlığımızın əsas göstəricisi // Ədəbiyyat qəzeti. – 12 iyun 2015. – s. 3.
15. Məmmədov, R. Ana dilinin folklor düşüncəsində yeri və estetikası // Xalq qəzeti. – 8 mart 2017. – s. 5.
16. Əliyeva, N. Azərbaycan nağıllarında dilin ifadə gücü // Azərbaycan. – 21 oktyabr 2018. – s. 4.
17. Quliyev, A. Şifahi xalq ədəbiyyatında dilin poetik funksiyası // Kaspi. – 15 may 2019. – s. 6.
18. Hüseynova, L. Ana dilinin qorunması və inkişafında folklorun rolu // Ədəbiyyat qəzeti. – 3 fevral 2020. – s. 2–3.
19. Abbasov, E. Azərbaycan nağıllarında milli dil təfəkkürü // Xalq qəzeti. – 27 noyabr 2021. – s. 7.
20. Qafarova, A. Dil və milli kimlik: folklor nümunələrinin rolu // Azərbaycan. – 18 sentyabr 2022. – s. 5.
21. Məmmədli, P. Nağıllarımızda ana dilinin qüdrəti // 525-ci qəzet. – 14 yanvar